# *PEDAQOJİ ELMLƏR*

## Azərbaycan Demokratik Cümhuriyyətində təhsil siyasəti və xeyriyyə cəmiyyətlərinin fəaliyyəti

**Səyyarə Cəfərova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** ceferova.seyyare@bk.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. H.H. Əhmədov,
ped.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** maarif, islahatlar, xeyriyyəçilik, məktəb, millət, ziyalılar
**Ключевые слова:** просвещения, реформы, благотворительные, школа, нация, интеллигенты
**Key words:** enlightenment, reforms, charity, school, nation, volt intellectual

Şərqdə ilk demokratik dövlət quruluşu olan Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli - 23 aylıq fəaliyyyəti dövründə xalqımızın istiqlaliyyətini elan etmiş, milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə sübuta yetirmişdir.

Müasir dünyada əsas demokratik normalardan hesab olunan xalq hakimiyyəti, insan haqları, milli və irqi bərabərlik, söz və mətbuat Yaxın və Orta Şərqdə ilk dəfə Azərbaycan Xalq Cumhuriyyətində əməli şəkildə həyata keçirilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyəti dövründə milli mənlik şüurunu demokratik hərəkatın və inkişafın prinsiplərindən hesab etmiş, hər işdə azərbaycançılıq qayəsi, milli mənafelərin aliliyini rəhbər tutmuşdur.

"Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamında deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahəsində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti əks etdirən əsas istiqamətlərdir" (3, s. 5).

1918-ci il may ayının 28-də Milli Şuranın Qafqaz canişininin Tiflisdəki sarayında keçirilmiş iclasında 24 səslə Azərbaycanın dövlət müstəqilliyi haqqında bəyannamə qəbul edildi. Bununla da, öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan Azərbaycan 1918-ci ilin 28 mayında öz müstəqilliyini elan etdi.

Mayın 28-də baş tutmuş iclasda Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hųkumətinin tərkibi təsdiq edildi. 1918-ci il mayın 30-da Fətəli xan Xoyski Azərbaycanın müstəqilliyinin elan olunmasını radio vasitəsi ilə bildirdi.

Beləliklə, Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş yeni hökumətin yaranması ilə "ziyalıların hakimiyyəti" dövrü başlandı. Cümhuriyyətin tarixini tədqiq edən bir çox Qərb alimləri onu "maarifçi hökumət" kimi təqdim edirdilər.

Azərbaycan Cümhuriyyətinin yaranma ərəfəsində sosial-mədəni quruculuq sahəsində geriləmə müşahidə olunurdu. Hökumətin qarşısında məktəb sisteminin dağıdılmasını dayandırmaq kimi mühüm vəzifə dururdu. Belə şəraitdə hökumət tərəfindən müharibələr nəticəsində dağıdılmış məktəblər şəbəkəsinin bərpası, məktəblərin yeni şəraitə uyğunlaşdırılması, milli incəsənətə kömək göstərilməsi üzrə mühüm tədbirlər görülməyə başlandı.

Əgər 1914-ci ildə Azərbaycanda bütün tiplərdən olan 976 məktəb var idisə və bunlardan 73,1 min şagird təhsil alırdısa, 1919-1920-ci təhsil ilində cəmisi 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48078, orta məktəblərdə isə 9611 şagird oxuyurdu (7, стр 14).

Azərbaycan hökumətinin qarşıya qoyduğu məqsədlərdən biri təhsil müəssisələrinin milliləşdirilməsi idi.

Milliləşdirmə siyasəti pedaqoji kadrların çatışmamasından, kifayət qədər dərsliklərin olmaması kimi səbəblərdən çətinliklərlə qarşılaşırdı. Əhalinin mъəyyən hissəsinin – Azərbaycan dilini, Azərbaycan dövlətçiliyini tanımayan, qəbul etməyən hissəsinin müqaviməti bu çətinliklərdən idi. 1919-cu ilin əvvəllərində respublika ərazisində 23 dövlət orta təhsil müəssisəsi var idi ki, onlardan da altısı kişi, dördü qadın gimnaziyası, beşi realnı məktəb, üçü müəllimlər seminariyası, üçü «Müqəddəs Nina» qız məktəbi, biri politexnik və biri kommersiya məktəbi idi (4, c. 54).

Tədris müəssislərinə qəbul zamanı azərbaycanlılara müxtəlif güzəştlər verilirdi. Bütün bu tədbirlər nəticəsində şagirdlərin ümumi sayı içərisində azərbaycanlıların sayı artdı. Əgər 1914-1915-ci illərdə 9643 nəfər orta məktəb şagirdindən ancaq 1137 nəfəri azərbaycanlı idisə, 1919-1920-ci tədris ilində 9611 şagirddən 3115-i azərbaycanlı idi (1, 161).

Maarifləndirmə işlərinə baxmayaraq, Azərbaycanda ziyalıların sayı çox az idi. Ziyalılarının iqtisadi, sosial-siyasi və hüquqi vəziyyəti istənilən səviyyədə deyildi. Qarşılaşdıqları çətinliklərə baxmayaraq, onlar maariflənmə, xalqımızın dünya nailiyyətlərinə qovuşması üçün əlindən gələni əsirgəmirdilər.

Bu məqsədlə onlar XX əsrin əvvəllərində mədəni-maarif və xeyriyyə cəmiyyətlərini yaratmağa başlamışdılar. 1919-cu ilin əvvəlində Bakı və onun rayonlarının mədəni-maarif cəmiyyətlərinin birləşdirilməsinə başlandı. Bu cür cəmiyyətlərin konfranslarının çağırılması üçün təşkil komissiyası seçildi və bir müddətdən sonra "Bakı şəhər mədəni-maarif müəssisələri ittifaqının nizamnaməsi" təsdiq olunmaq üçün hökumətə göndərildi. (1. s, 175-176) Nizamnamədə deyilirdi ki, mədəni-maarif cəmiyyətləri ittifaqının məqsədi Bakı əhalisinin mədəni səviyyəsini yüksəltmək məqsədi ilə şəhərin bütün mədəni qüvvələrini birləşdirməkdən ibarətdir. (1, s. 176)

Xalq təhsilinin inkişafında "Nəşri-Maarif", "Nicat", "Türk ocağı", "İran Maarif Cəmiyyəti", "Tərəqqi", "Şagirdlər ittifaqı", "Müsəlman tələbələr komitəsi" və başqa bu kimi Azərbaycan mədəni-maarif cəmiyyətlərinin xidmətləri olmuşdur. Bundan başqa, milli azlıqların da cəmiyyətlərinin mövcudluğu bilinməkdədir.

Azərbaycan hökuməti təhsildən yayınmış «küçə uşaqları»nın taleyi ilə də maraqlanırdı. Belə ki, Bakıda 1919-cu ilin avqustunda təhsildən uzaq qalmış uşaqlar üçün dövlət hesabına «Uşaq evi» və «Uşaqlara yardım bürosu» təşkil edilmişdi.

Azərbaycan hökuməti yürütdüyü siyasət mədəni maarif cəmiyyətləri şəbəkəsinin

genişlənməsinə və inkişafına şərait yaradırdı. Bu işdə ümumtəhsil kursları və "Xalq əyləncələri" cəmiyyəti xüsusi seçilirdi.

"Xalq əyləncələri" cəmiyyəti Bakıda fəaliyyət göstərmiş liberal istiqamətli qurum idi. Cəmiyyət müstəqillik əldə etmiş əhalinin istirahətinin təşkilində, savadlanmasında, uşaqların və yeniyetmələrin müxtəlif əyləncəli tədbirlərə və dərnəklərə, klub və kitabxanalara cəlb olunmasında xüsusi fəallıq və təşəbbüskarlıq göstərirdi. Əfsuslar olsun ki, cəmiyyət 1920-ci ildə cümhuriyyətin süqutundan sonra öz fəaliyyətini dayandırmışdır (6, səh 8).

"Lənkəran şəhəri tələbə və abituriyenlər" ittifaqı Lənkəran şəhəri əhalisi arasında mədəni-maarif işi aparmaq, burada savad kursları, kitabxana-qiraətxanalar təşkil etmək, məşğələlər keçirmək və s kimi məqsədlərini qarşıya qoymuş qurum 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmışdı. İttifaq əhali arasında milli-mənəvi dəyərlərin təbliği əhəmiyyətli rol oynamışdır. Qurum 1920-ci ildə aprel işğalından sonra fəaliyyəti dayandırmalı oldu (6, s. 168).

**Məqalənin aktuallığı.** Bu il respublikamızda Azərbaycan Cümhuriyyətinin yaradılmasının 100 illiyi dövlət səviyyəsində qeyd olunur. Nəzərə alsaq ki, cümhuriyyətlə bağlı tədqiqatlara diqqət getdikcə böyük əhəmiyyət kəsb edir, bu halda Şərqdə ilk demokratik respublikanın fəaliyyətinin araşdırılması baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Azərbaycan Cümhuriyyətinin yaranması ərəfəsində sosial-mədəni quruculuq sahəsindəki vəziyyət təhlil olunur, həmin dövrdə mцvcud geriləmənin səbəbləri araşdırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta umumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar bəhrələnə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı: Elm, 1998.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament. Stenoqrafik hesabatlar. I cild. Bakı: Azərbaycan, 1998.
3. Календарь Азербайджанской Республики. Баку, 1920.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (iki cilddə). II cild. Bakı: Lider, 2005,
5. Народное образование в Азербайджане (1920-1927). Baku, 1928.

**С. Джафарова**

## Политика образования и деятельность благотворительных обществ в Азербайджанской Демократической Республики

## Резюме

Во время образовании Азербайджанской Республики намечалось отсталость в социально-культурной области. Перед правительством стала задача остановить обрушение школьной системы. В это время государство начал проводит не отложенные меры для реконструкции школьной систем, адаптации школь в новой обстановки, развивать национальной культуры, которое обрушены во время войн.

**S. Cafarova**

## Activities of the societies of education politics and charitable in Azerbaijan Democratic Republic


### Summary

The lagging behind in the building area was observed social in the arise on the eve of Azerbaijan republic. Important post get up as to stop destroy in front of the government of the school system. Restoration of the net of schools destroyed in the wars in the result of by government, adapting to new condition of the schools, he began to folk art take measures important on rendering assistance.


**Redaksiyaya daxil olub:** 23.11.2018